# RƏQƏMSAL KİTABXANALARIN FORMALAŞDIRILMASI VƏ İDARƏ OLUNMASI

***Səidə Aydın qızı Rzayeva***

*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Kitabxana İnformasiya Mərkəzi*
*4 saylı oxu zalının şöbə müdiri*
*saida_aydin@unec.edu.az*

***Açar sözlər:*** *informasiya cəmiyyəti, informasiya və kommunikasiya texnologiyaları (İKT), informasiya texnologiyaları (İT), rəqəmsal kitabxana, modernləşmə*

***Ключевые слова:*** *информационное общество, информационно-коммуникационные технологии (ИКТ), Информационные технологии (ИТ), цифровая библиотека, модернизация*

***Keywords:*** *information society, information and communication technologies (ICT), information technologies (IT), digital library, modernization*

**Xülasə:** Məqalədə rəqəmsal kitabxanaların formalaşdırılması və idarə olunması məsələləri araşdırılır. Müasir kitabxanalara informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin üstünlükləri və istifadəçilərin innovativ rəqəmsal kitabxana platformalarına olan tələbatı nəzərdən keçirilir. Rəqəmsal innovasiyaların istifadəsi ilə bağlı tez-tez yaranan problemlərin açıqlaması verilir, onların arasında elektron kitabxana sistemlərinin idarə edilməsində çətinliklər vurğulanır. Müasir rəqəmsal kitabxanalar üçün vahid statistik standartın hazırlanması məsələsi müzakirəyə qaldırılır. Məqalədə kitabxanaların modernləşdirilməsindən bəhs edilir. Elektron kitabxana proqramlarında istifadəçi üçün əlverişli və başa düşülən interfeyslərin yaradılmasının zəruriliyi qeyd edilir.

**Резюме:** В статье рассмотрены вопросы организации и управления процессами цифровизации библиотек. Рассмотрены преимущества внедрения информационно-коммуникационных технологий в современные библиотеки, востребованность в инновационных цифровых библиотечных платформах со стороны пользователей. Сформулированы частые проблемы, связанные с применением цифровых инноваций, среди которых – сложности управления электронными библиотечными системами. Поставлен вопрос о разработке единого стандарта статистики для современных цифровых библиотек. В статье рассматривается модернизация библиотек. Отмечена необходимость создания в приложениях электронных библиотек интерфейсов, удобных и понятных пользователю.

**Summary:** The article examines the issues of organizing and managing digitalization processes in libraries. The advantages of introducing information and communication technologies into modern libraries and the demand for innovative digital library platforms from users are considered. Frequent problems associated with the use of digital innovations are formulated, including the difficulties of managing electronic library systems. The issue of developing a unified statistical standard for modern digital libraries is raised. The article examines the modernization of libraries. The need to create user-friendly and understandable interfaces in electronic library applications is noted.

Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra, qlobal miqyasda baş verən elm və texnika sahəsindəki dəyişikliklərə inteqrasiya etməli oldu. Bu proseslərin əsas məqsədi informasiya cəmiyyətinin qurulması və möhkəmlənməsidir. İnformasiya və informasiya resursları ilə təmin edilən informasiya-kommunikasiya cəmiyyəti, dünyada köklü dəyişikliklərə yol açdı. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) həyata, sosial hadisələrə və iqtisadiyyata təsiri elə yüksəkdir ki, bu hadisələrin cərəyan etdiyi birliyə "informasiya cəmiyyəti" adı verilir. [3, s.7]

Milli İnformasiya Resurslarının tərəqqisi sahəsində İKT üzrə Milli İnkişaf Strategiyası, aşağıdakı pillələri əhatə edir:

· informasiya cəmiyyətinin formalaşdırılması üçün milli elektron üsullardan istifadə;

· Azərbaycan dilində elektron məlumat mübadiləsinin təşkili;

· ədəbi, tarixi və mədəni sərvətin qorunması və arxivlərdə, kitabxanalarda, muzeylərdə İKT-dən istifadənin təmin olunması;

· milli informasiya resurslarından beynəlxalq miqyasda yararlanmasını təmin etmək məqsədilə milli informasiya resurslarının qlobal informasiya birliyinə inteqrasiyası;

· Azərbaycan diasporunu informasiya dəstəyi ilə təmin etmək; ·
Azərbaycanda internet seqmentinin inkifaf edilməsi;

. Milli axtarış sistemlərinin inkişafı;

· Proqram təminatının azərbaycan dilində yaradılması və inkişafı. [5, s.25]

Sosial informasiya daxilində elektron arxivinin yaradılması, elektron (rəqəmsal) kitabxananın qurulmasının ən əsas aspektidir. [4, s.15] Bununla yanaşı, İnformasiya Cəmiyyətində informasiya və biliklərin əldə edilməsi, qorunması, emalı, ötürülməsi, yayılması və İKT-nin vasitəsilə istifadəsi də mühüm rola malikdir. Rəqəmsal elektron kitabxanaların qurulması üçün xüsusi layihələr dünyanın bir çox ölkələrində tətbiq edilir. Eyni prinsipləri Azərbaycan Milli Elektron Kitabxanasının qurulmasında tətbiq etmək mümkündür. Bu prinsiplər əsasında Azərbaycanda rəqəmsal kitabxanaların yaradılmasına ehtiyac duyulur. Əsas dövlət informasiya resursları bunlardır: respublika arxiv fondu, elmi və texniki məlumatlar, kitabxana fondları, həmçinin tədris resursları, dövlət statistika fondunun vəsaitləri, dövlət qurumlarının ehtiyatları və ümumiyyətlə bütün dövlət strukturlarının informasiya ehtiyatları. Əvvəlcə, adi bir vətəndaşın marağını çəkən və ehtiyac duyduğu bir informasiya resursuna nəzər yetirək. Bura bədii ədəbiyyatın və jurnalların tam mətnli elektron nəşrləri, ensiklopediyalar, məlumat kitabçaları, dərsliklər, statistik nəşrlər, lüğətlər, əlyazmalar, həmçinin rəsmlər, fotoşəkillər, audio və video elektron informasiyalar daxildir. Elmlər Akademiyasının elmi müəssisələri müxtəlif marağa sahib olan auditoriya üçün elektron resurslar təqdim ediblər. Bu səbəbdən də, Milli Elmlər Akademiyasının bazasında milli elektron rəqəmsal kitabxana formalaşdırmaq məqsədəuyğun görünür. Dövlət Başçısının 12 yanvar 2004-cü il tarixli sərəncamı, milli ədəbiyyatın təkrar çap olunmasına yönəldilməklə yanaşı, milli ədəbi irsin qızıl fondunun elektron formatda tərtib edilməsinə, ensiklopedik nəşrlərin elektronlaşdırılmasına da təkan vermişdir. Hal hazırda Mərkəzi Elmi Kitabxana, səylərini cəmləşdirərək informasiya bazaları qurur və oxuculara bu məlumat resurslarından istifadə etmə imkanını verir [2]. Bununla yanaşı, geniş miqyaslı elektron rəqəmsal kitabxana platformalarının yaradılması üçün, yüksək səviyyəli kitabxana biliyi və təcrübəsi mütləqdir.

Ölkədə kitabxanaçılıq elmini inkişaf etdirmədən, elektron kitabxana qurmaq fikri, yalnız bir xəyal olaraq qalacaqdır. Beynəlxalq Kitabxana Təsnifatı, son olaraq 1969-cu ildə çap edilmişdir, və ona görə də müasir texnologiyanın bu sistemdə öz əksini tapmaması normal haldır. Milli Elektron Kitabxananın yaranmasında standartların rolu da mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, dünyanın bütün kitabxanaları ilə işləmək üçün ortaq bir sistem seçmək tələb olunur. Fərqli sahələrə aid informasiya resursları, kitabxana kataloqları, elektron ehtiyatları ortaq bir məlumat bazasında cəmləşərək, vahid axtarış sistemindən istifadə edilməlidir [6].

İnformasiya texnologiyaları (sonrakı mətnlərdə İT) bizim gündəlik yaşamımızın ayrılmaz bir parçasıdır. Rəqəmsal dövrdə kitabxanalar, müxtəlif formatlarda olan bir çox məlumatla qarşılaşırlar, və bu onları bir sıra çətinliklərlə üz-üzə qoyur. Rəqəmsal kitabxananın qarşısında duran çətinliklərdən biri də məlumatların işlənməsi və çatdırılması məsələsidir. İnformasiya texnologiyaları, rəqəmsal kitabxanaların strukturunu yaratmaq, qorumaq və idarə etmək üçün mühüm rol oynayır.

Beləliklə, İT-nin idarə olunması, rəqəmsal eranın əsas problemlərindən birinə çevrilir. İndiki dövrdə informasiya texnologiyalarının geniş tətbiqi və çox vaxt onun kritik asılılığı mövzusu aktual-

lıq qazanır, bu da öz növbəsində bir çox təşkilatları İT idarəetmə üsullarını tətbiq etməyə sövq edir. İnformasiya sistemlərinin səmərəliyinə dair araşdırmalar əsasən ölçüyə, həmçinin yetkinlik modelləri və İT göstəricilərinin tarazlaşdırılmış sistem üsullarının istifadəsinə yönəlmişdir. Rəqəmsal kitabxananın idarə edilməsi bugünkü rəqəmsal əsrdə çox mühüm bir bacarıqdır. O, rəqəmsal informasiya resurslarının təşkilini, saxlanmasını, mühafizəsini, asan əldə edilməsini və axtarışını özündə əks etdirir. Rəqəmsal məzmunun eksponent artımı ilə bu bacarıq həm şəxsi, həm də peşəkar kontekstlərdə məlumatın effektiv idarə edilməsi zəruriyyətini yaratmışdır. Akademiyalarda, kitabxanalarda, muzeylərdə, tədqiqat institutlarında və ya böyük həcmdə rəqəmsal məzmunla məşğul olan hər hansı digər sənayedə işləməyinizdən asılı olmayaraq, bu bacarığı mənimsəmək məlumatın effektiv şəkildə təşkili və əldə edilməsi üçün çox önəmlidir.

Rəqəmsal kitabxana idarəçiliyinin əhəmiyyəti müxtəlif peşə və sənaye sahələrini əhatə edir. Akademik şəraitdə bu, tədqiqatçılara, tələbələrə və professor-müəllim heyətinə böyük miqdarda elmi resurslara daxil olmaq və onlardan səmərəli istifadə etmək imkanını yaradır. Kitabxanalarda rəqəmsal kolleksiyaların düzgün idarə olunması rahat istifadəçi təcrübəsini təmin edir və məlumatlara çıxışı artırır. Muzeylər və mədəniyyət müəssisələri öz kolleksiyalarını rəqəmsal platformalar vasitəsilə nümayiş etdirərək, daha geniş auditoriyaya çata bilərlər. Media təşkilatlar rəqəmsal aktivləri effektiv şəkildə idarə edə və yaya bilərlər. Bundan əlavə, müəssisələr məhsuldarlığı və əməkdaşlığı artıraraq daxili sənəd idarəetmə sistemlərini optimallaşdıra bilərlər. Azərbaycanda gerçəkləşdirilən dövlət siyasəti, informasiya-kommunikasiya texnologiyalarının, yeni bir prioritet sahəsi kimi, inkişafı üçün uyğun şərait təmin etmişdir. Dövlətimiz, Cenevrə Sammitində (2003-cü ilin dekabrında) razılaşdırılmış prinsiplərə riayət edərək, informasiya cəmiyyətinin yaradılması istiqamətində dövlət səviyyəsində məqsədli işlər görür və "Azərbaycan Respublikasının tərəqqisi üçün informasiya-kommunikasiya texnologiyalarından istifadə üzrə Milli Strategiya"sını (17 fevral 2003-cü il) qəbul edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zirvə görüşündəki çıxışında (2003-cü il) söylədiyi kimi, "Bu aspektdən ölkəmiz, Azərbaycanın bölgədə lider ölkə kimi tanınmasına şərait yaradan həm elmi imkanlara, həm də texnoloji uğurlara malikdir" [9]. Ölkəmizin ən böyük kitabxana-informasiya şəbəkəsi Təhsil Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin, Milli Elmlər Akademiyasının kitabxana şəbəkələri təşkil edir.

Beynəlxalq standartlara, hüquqi aktlara, demokratik prinsiplərə əsaslanan milli informasiyalaşdırma siyasəti əsasında, informasiya cəmiyyəti quruculuğu kontekstində Azərbaycan kitabxanalarının müasirləşdirilməsi dövrün tələbidir. Müasirləşmə strategiyası sadəcə kitabxana xidmətlərini kompüterləşdirməklə məhdudlaşmır, o, həm də informasiya-biblioqrafiya sisteminin təkmilləşdirilməsini və yenidən qurulmasını nəzərdə tutur. Bundan əlavə, beynəlxalq standartların, qlobal informasiya sahəsinin, eləcə də cəmiyyətin və elmin informasiyalaşmasının müasir tələbləri də bu strategiyanın tərkib hissəsidir.

Kitabxana işinin önəmli istiqamətlərindən biri, ən müasir texnologiyalara dayanan elektron rəqəmsal kitabxana şəraitinin qurulmasıdır. Bu, həmçinin qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, işçi heyətinin təlimi və qlobal standartlara uyğun kitabxana xidmətinin təşkilini də əhatə edir.

Müasir tədqiqatlar elektron kitabxana sistemləri platformalarına və informasiya texnologiyalarının əsaslarını bilən ixtisaslı kitabxana işçilərinə artan tələbatın olduğunu göstərir. İstifadəçilərə və potensial müştərilərə rəqəmsal kitabxanalara səfərlərin statistikası haqqında etibarlı məlumatları görməyə imkan verən, statistik məlumatların toplanması üçün vahid standartın yaradılması zərurəti məsələsi də getdikcə aktuallaşır və peşəkar ictimaiyyət tərəfindən getdikcə daha çox müzakirə olunur. Belə bir standartın yaranması təşkilatlar və təhsil müəssisələri üçün optimal elektron kitabxana sisteminin seçimini asanlaşdıra bilər.

Kitabxanaların fəaliyyətinə yeni texnologiyaların tətbiqi, əsasən, xarici amillərlə - informasiyalaşdırma və insan cəmiyyətinin demək olar ki, bütün sahələrinin inteqrasiyası ilə şərtlənir. Son illər

ərzində Azərbaycanda kitabxanalar müasir tələblərə uyğunlaşmaq və öz resurslarını yeni informasiya texnologiyaları əsasında transformasiya etmək üçün fəal şəkildə çalışırlar.

**Ədəbiyyat**


1.*Kərimova, S.H.* Elektron kitabxanaların inkişafı: dünya təcrübəsi //Kitabxana-şünaslıq və İnformasiya: Elmi-nəzəri praktiki jurnal. – 2012. – № 2. – S.104-110.

2.*Алгулиев Р.М., Алиев И.М., Шарифов М.Г.* Создание сетей контент-серверов на базе СЭЫ технологии // Тезисы докладов международной научной конференции «Теория и техника передачи, приема обработки информации», Харьков, октябрь 2003 г.

3.*Алиева-Кенгерли, А.И., Кондратьев, СВ.* О создании Национальной Электронной библиотеки в НАНА / А.И.Алиева-Кенгерли, СВ.Кондратьев // Научн.тр.; ЦНБ НАНА. – 2010. — Вып. 8. — С. 7–17.

4.*Горный, Е., Вигурский, К.* Развитие электронных библиотек: мировой и российский опыт, проблемы, перспективы. http://www.zhumal.ru/stafl^gorny/texts/dlib.html.

5.*Мелюхин, И.С.* Информационное общество: истоки, проблемы, тенденция развития. – М.: Изд-во МГУ, 1999г. – 208 с.

6.*Нечипоренко, В.П., Шрайберг, Я.Л.* Информационная инфраструктура науки и техники и межведомственная программа «Электронные библиотеки России» // Электронные библиотеки -2000 – Т.З. http://www.iis.ru/el-bib/2000/200005/NS/ns.ru.html.

7.*Сюнтюренко, О.В.* Электронные информационные ресурсы: новые технологии и приложения // Электронные библиотеки. — 2001. — Т. 4. Вып. 1. http://www.iis.ru/elbib/2001/200101/200101.ru.html.

8.*Arms, W.Y.* Digital Libraries/ - Cambridge, MA: The MIT Press, 2000.

9. /https://ea-news.kz/библиотеки-в-информационной-среде/